# TƏBRİK EDİRİK!

*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru,*

*professor Ceyran Mahmudovaya*

***Hörmətli Ceyran xanım!***

***Sizi və rəhbərlik etdiyiniz kollektivi əlamətdar hadisə – Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 100 illik yubileyi münasibətilə ürəkdən təbrik edir, yüksəkixtisaslı kadrların hazırlanması işində yeni uğurlar arzulayırıq. Başlanğıcını 1923-cü ildə Bakı Teatr Məktəbindən götürən Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti yarandığı vaxtdan bu günə qədər mədəniyyət və incəsənət sahəsində peşəkar mütəxəssislərin hazırlanmasında səmərəli fəaliyyət göstərmişdir.***

***Milli mədəniyyətimiz üçün olduqca mühüm əhəmiyyət kəsb edən, zəngin ənənələrə malik olan bu ali təhsil ocağının teatr məktəbindən böyük bir universitetə çevrilməsində orada çalışan məşhur sənətkarların, mədəniyyət və incəsənət xadimlərinin xüsusi rolu olmuşdur. Mədəniyyətimizin elə bir sahəsi yoxdur ki, orada Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin məzunları çalışmasın. Teatr və kino sənətimizin inkişafında, tanınmış rejissorların, diktorların, aparıcıların formalaşmasında bu ali təhsil müəssisəsinin müstəsna xidmətləri vardır.***

***Zəngin tarixi ənənələrə malik olan ADMİU yüksək bədii və intellektual bazası olan, dünya təhsil standartlarına cavab verən ali təhsil ocağıdır. Universitetin kadr potensialı, mədəniyyət və incəsənətin bütün sahələrini əhatə edən ixtisasların açılması, ildən-ilə genişlənən beynəlxalq əlaqələr, imzalanan müqavilələr bir əsirlik uğurların bariz nümunəsidir.***

***Hörmətli Ceyran xanım!***

***Sumqayıt Dövlət Universitetinin professor-müəllim heyəti adından Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin əməkdaşlarını bir daha bu yubiley münasibəti ilə təbrik edir, mədəniyyətimizin, təhsilimizin inkişafı naminə Sizə və rəhbərlik etdiyiniz kollektivə yeni-yeni uğurlar diləyirik.***

***Hörmətlə,***

***Sumqayıt Dövlət Universitetinin rektoru*** ***Rüfət Əzizov***